*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 oktyabr 2020-ci il № 65 (2483) Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev: Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad edib

Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, oktyabrın 5-də bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

## Mehriban Əliyeva: Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:*

"Əziz həmvətənlər! Rəşadətli ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun!".

*Əks-hücum əməliyyatından reportaj*

# Döyüş andın qələbədi, Azərbaycan əsgəri!



*Döyüşlərdən uzaqlarda olsaq da, ürəyimiz döyüşlərdə güllə atanlarımızla güllə atır, mərmi atanlarımızla mərmi. Yaralananlarımızı döyüşün içindən çıxardanlarımızın sırasında olmuşuq, yaralılara yardım edənlərə yardımçı olmuşuq. Bu, müharibə deməkdi. Məmləkətimizdə müharibə gedir. Düşmənin hücumunun qarşısını alan, əks-hücum əməliyyatını torpaqlarımızı işğaldan azad edəcək döyüşlər kimi davam etdirənlərimizlə kəlmələşəcəyim anlara tələsirəm...*

Dağları bürüyən dumana görə təbiəti qınayaqmı, qınamayaqmı? Necə qınayaq? - bəşərin təbiətə hökm etmək qüdrəti yoxdu. Necə qınamayım? - bəşəriliyə xidmət edənlərin yoluna çökən duman işğalçıları güllələrdən, mərmilərdən daldalandıra bilər...

Ruhu ucalıqlar pərvanəsi olanların sırasındayam, illəri belə yaşamışam.

**(Ardı 7-ci səhifədə)**

# Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib.*

*AZƏRTAC müsahibəni təqdim edir.*



**- Cənab Prezident və Ali Baş Komandan İlham Əliyev, "TRT Haber"ə xoş gəldiniz. Zaman ayırdığınız üçün təşəkkür edirəm. İşğal altındakı torpaqlarınızdan bu günədək nə qədəri geri alınıb. Hərəkat bu anda hansı mərhələdədir və planladığınız çərçivədə gedirmi?**

- Bəli, hər şey plan üzrə gedir. Bu günə qədər qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Azərbaycan Ordusu uğurla irəliyə gedir. Bir çox yaşayış məntəqələri, bir şəhər, bir neçə kənd işğaldan azad edildi. Hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir.

Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu, beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur.

**- Atəşkəs çağırışlarına cavab verərkən heç bir ölkə liderinə zəng etmədiyinizi, sadəcə, danışmaq istəyənlərlə vəziyyəti dəyərləndirdiyinizi bildirdiniz. Ermənistanın baş naziri Paşinyanın isə adəti üzrə yalvardığını, bir çox dövlət başçısına zəng etdiyini vurğuladınız. Keçmiş təcrübələriniz əsasında bu dəfə başqa ölkələrin atəşkəs çağırışlarının nəticə verəcəyini düşünürsünüzmü?**

- Atəşkəs müəyyən şərtlərlə təmin edilməlidir. Çünki bu günə qədər bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin. Hansı müzakirələr davam edəcək, müzakirələr nəyin əsasında davam edəcək, bunlar bizə deyilmir. Biz bu müzakirələrdə artıq 30 ilə yaxındır ki, iştirak edirik və ümidlərlə iştirak edirdik. Əgər ümidlərimiz olmasaydı, təbii ki, bu müzakirələrdə iştirak etməzdik. Hər zaman müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi. Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan bütün əvvəldən, bəri başdan əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik. Ona görə, sadəcə, atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz. Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni, cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq. Onsuz da onların çıxışlarında göstərilir ki, Ermənistanın xaricində yaşayan erməniləri də onlar bu müharibəyə cəlb edirlər. Beləliklə, bu müharibəni regional müstəvidən çıxarıb qlobal müharibəyə çevirmək istəyirlər. Ona görə bizim atəşkəslə bağlı sözümüz birdir. Biz buna hazırıq. Amma müəyyən şərtlər var ki, onları da mən açıqlamışam.

**- Açıqlamısınız. Zəmanət verilirsə dediniz, hansı zəmanəti nəzərdə tutursunuz?**

- Birinci zəmanət. Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda, təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar.

**- İndi dediyiniz 30 il ərzində bu günə qədər bir çox söz verildi. Bundan sonra veriləcək sözə necə güvənəcəksiniz?**

- Elə onun üçün mən söyləyirəm ki, sözdən başqa, bizə konkret tarix verilməlidir. Əgər o tarixdə, - bilmirəm veriləcək, veriləcək, - veriləcək tarixdə Ermənistan silahlı qüvvələri bəlli olan bölgələrdən çıxmazsa, o zaman biz də atəşkəsə riayət etməyəcəyik.

**- Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı?**

- Bunu onsuz da Ermənistan istəyir. Onların çirkin əməlləri buna hesablanıb. Biz hesab edirik ki, buna yol verməmək olmaz. Bu müharibə Azərbaycanla Ermənistan arasında olan müharibədir. Bu müharibəni biz başlamamışıq. Biz bu müharibənin səbəbkarı deyilik. Biz, sadəcə olaraq, özümüzü müdafiə edirik və öz torpaqlarımızı geri istəyirik. Bizim Ermənistan torpaqlarında gözümüz yoxdur. İyul ayında Ermənistan-Azərbaycan sərhədində ermənilər tərəfindən başlanan qarşıdurmalar nəticəsində Azərbaycan Ordusu Ermənistan torpağına keçmədi, halbuki ora keçə bilərdik. Onlara çox güclü zərbələr endirdik və onlar da geri çəkildi. Bizim qarşımızda heç bir maneə, heç bir əngəl yox idi. Biz onu etmədik. Çünki mən söylədim ki, bizim Ermənistan Respublikasının torpaqlarında hər hansı bir hərbi hədəfimiz yoxdur. Ermənistan isə bu gün Azərbaycana Ermənistan ərazisindən hücum edir. Bax, dünən Gəncəyə zərbələr Ermənistan ərazisindən vuruldu, Mingəçevirə zərbələr vuruldu. Bizim orada böyük stansiyamız var. Mərmilərdən biri stansiyanın yanına düşdü. Doğrudur, onların mərmiləri elə mərmilərdir ki, - siz mühümmat deyirsiniz mərmilərə, - onların bəziləri partlamadı. Bəzilərini isə bizim hava hücumundan müdafiə qurğularımız havada məhv etdi. Onlar bizi bu təxribata çəkirlər ki, biz də Ermənistana hücum edək, Ermənistana zərbələr endirək. Ondan sonra da çıxıb bütün dünyaya desinlər ki, Azərbaycan bizə hücum edir, gəlin Ermənistanı xilas edin, yəni, Ermənistan canını qurtarır.

**- Ermənistanın beynəlxalq hüquqla çərçivələnmiş sərhədlərində bu hücumlar davam edərsə, vaxt gələrsə, yenə bugünkü mövqeyinizi qoruyacaqsınız, yoxsa?..**

- Bunu demək hələ tezdir. Biz qarşıdurmaların gedişinə baxacağıq. Hər halda, bizə vurulan hər bir zərbənin mənbəyi bizim üçün qanuni hədəfdir, legitim hədəfdir. Biz bu hədəfləri vurmağa məcbur olacağıq. Bu gün Azərbaycan Ordusu yalnız hərbi hədəfləri vurur. Bu, videogörüntülərdə artıq hər kəs üçün aydındır, hər kəs bunu görə bilir. Biz yalnız Ermənistanın işğalçı ordusuna qarşı döyüşürük. Mülki əhaliyə qarşı heç vaxt döyüşməmişik. Bu gün də etmirik və etməyəcəyik.

**- Qaşaltı Qaraqoyunluda gördüm, ikisi uşaq olmaqla, beş Azərbaycan vətəndaşı qətlə yetirildi. Azərbaycan Ordusunun 27 sentyabr erməni hücumlarına cavab verməsi ilə başlayan hərəkatın son hədəfi artıq bəllidir: Dağlıq Qarabağın Ermənistanın işğalından qəti şəkildə azad edilməsi, təmizlənməsi, boşaldılması. Siz ilk gündən etibarən dediniz ki, bundan sonra döyüşlər ancaq Azərbaycanın işğal altındakı torpaqlarından Ermənistanın qeyd-şərtsiz çıxması ilə dayandırılacaq. Hələ də eyni mövqedəsiniz, düzgünmü anlayıram?**

- Bəli, mənim mövqeyimdə hər hansı bir dəyişiklik yoxdur. Biz bu məsələni tarixi ədalət əsasında həll etməliyik. Tarixi ədalət onu deyir ki, Qarabağ qədim Azərbaycan torpağıdır və bütün tarixi sənədlər, bütün tarixi abidələrimiz bunu göstərir. Eyni zamanda, biz həmişə müzakirə masasında çox müsbət davranış nümayiş etdirmişdik və müzakirə masasında olan təklifləri də bu məsələnin həllini mümkün edir. Orada göstərilir ki, mərhələli həll olmalıdır. İlk mərhələdə ermənilər beş bölgədən çıxır, sonrakı mərhələdə daha iki bölgədən çıxır, ondan sonra vaxtilə Dağlıq Qarabağın ərazisindən qovulmuş azərbaycanlılar Dağlıq Qarabağa qayıdır, o cümlədən Şuşaya qayıdır, iki toplum çərçivəsində artıq həyat bərpa edilir, Ermənistan-Azərbaycan arasındakı sərhəd açılır, ticarət başlanır, ondan sonra insanlar bir-biri ilə təmasa girirlər və beləliklə, sülh gələcək. Yəni, bu, bizim mövqeyimizdir və bu, beynəlxalq vasitəçilərin, həmsədrlərin də münasibətidir. Ermənistan bunu qəbul etmir. Bundan əlavə Ermənistanın müdafiə naziri bir neçə ay öncə demişdir ki, biz yeni torpaqlar uğrunda yeni müharibəyə başlamalıyıq.

**- Qısa adı ATƏT olan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun 3 həmsədr ölkəsi var - Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa. Sizə atəşkəs çağırışı etdilər. Cavabınız dəyişdimi? Şərtiniz yerinə yetirilmədiyi təqdirdə, yəni, işğal altındakı torpaqlardan ermənilərin çəkilmədikləri müddətdə hər hansı atəşkəs ehtimalı varmı?**

- Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Mən bunu sizə bu gün bir daha dedim. Hətta biz ona da hazırıq ki, əgər bizə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Amma onu da bilməliyik ki, atəşkəsi bərpa etmək o qədər də asan məsələ deyil. Çünki atəşkəs birtərəfli bərpa edilmir və bu anda çox ciddi şiddətli döyüşlər gedir. Hər iki tərəf yerlərdə olan əsgər və zabitlərə təlimat verməlidir. Biri buna əməl edəcək, o biri əməl etməyə bilər. Yəni, o, çox çətin bir prosesdir. Ancaq əgər o çıxma tarixi bizə verilərsə, təbii ki, biz bu təlimatı verəcəyik. O zaman Minsk qrupunun həmsədrləri və digər ölkələr, mümkün olan ölkələr buna qoşularsa, atəşkəs bərpa oluna və beləliklə, bu döyüşlərə son qoyula bilər.

(Ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib

(Əvvəli 2-ci səhifədə)

**- Mümkün olan ölkələr deyərkən nəyi nəzərdə tutursunuz?**

- Türkiyəni. Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə, təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır və mən fürsətdən istifadə edərək, bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərtilə. Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq. Eyni zamanda, bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir. Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu. Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz, bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər.

**- Cənab Prezident, Minsk qrupunun həmsədrləri deyərkən Fransanı ayrı bir yerə qoyursunuz.**

- Fransa özünü ayrı yerə qoyur, mən qoymuram. Bütün prosesdə biz həmsədrlərə eyni gözlə baxmışıq və mən dəfələrlə rəsmi çıxışlarımda demişdim ki, hər bir ölkə ilə Azərbaycanın ayrı münasibətləri var, təbii ki, bu münasibətlərin səviyyəsi fərqlidir. Amma, eyni zamanda, bu məsələdə biz bu ölkələri bir-birindən ayırmırıq və bu ölkələr deməliyəm ki, bütün proses boyunca son olaylara qədər vahid bir mövqedən çıxış edirdi, bitərəf idi, yəni tərəf tutmurdu. Halbuki biz bilirdik ki, bəlkə də bunların ürəyində tərəftutma var. Bu da təbiidir. Amma rəsmi addımlarda və bizimlə təmaslarda heç zaman bunu göstərmirdilər.

**- Fransa prezidenti Makronu üzr istəməyə dəvət etdiniz.**

- Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir.

**- Hansı ittihamları?**

- Deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Onun açıqlamasında bu, var. Ondan sonra bir açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.

**- Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı tarixi qərarları var.**

-Təbii, özü səs vermişdi. Özü 1993-cü ildə səs vermişdi, yəni öz səsinə hörmət etsin.

**- İcazənizlə, daha bir neçə sualım olacaq. İstər cəbhə xəttinə uzanan quru yolları üzərində, istər olduğumuz şəhər və kəndlərə baxdığımızda, istərsə də paytaxt Bakıda dünən axşam gördük ki, Azərbaycan bayrağının yanında Türkiyənin bayrağı dalğalanır. Evlərdə, iş yerlərində, avtomobillərdə, hər yerdə. Türkiyədə də bənzər bir mənzərə var, bəlkə xəbərlərdə görmüsünüz. Cəbrayıldakı zəfərdən sonra Türkiyənin dörd bir yanında küçələrə axışıb qardaş Azərbaycana böyük dəstək nümayişləri var idi.**

- Doğrudur. Biz qürur duyuruq. Bu, təbiidir. Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir. Mən dəfələrlə bu mövzu ilə bağlı öz sözlərimi demişdim. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təşkil olunan birgə mətbuat konfranslarında dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildi. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu - kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Bütün mövzularda, bütün kürsülərdə biz bir-birimizi dəstəkləyirik və bizim birliyimiz əbədi olmalıdır.

**- Bu arada, Pakistanı da xatırlatmaq istəyirəm. Onların da bayraqlarını hər bir yerdə görürəm. Rusiya harada durur Sizcə? Çünki Rusiya xüsusi bir önəmə sahibdir.**

- Mən fürsətdən istifadə edərək, bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə, təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir.

Rusiya bizim qonşumuzdur. Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil. Halbuki Ermənistan buna çox ümid edirdi. Ermənistanın bu toqquşmanı bölgənin xaricinə çıxarmaq məqsədi də Rusiyanı buraya cəlb etməkdir. Ermənistan Azərbaycana hazırda Ermənistan ərazisindən niyə hücum edir? Məhz ona görə ki, biz də hücum edək, o da Rusiya ilə, başqa ölkələrlə birgə iştirak etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin baş katibliyinə müraciət etsin və desin ki, Azərbaycan bizə hücum edir, gəlin bizə yardım edin. İyul ayında, niyə onlar bu təxribatı Ermənistan-Azərbaycan sərhədində törətdilər? Tovuz Qarabağ bölgəsindən uzaq məsafədə yerləşir. Orada onların hansı hədəfləri var idi - bir hədəfi ki, biz hücum edək, biz dövlət sərhədini keçək, - mən dedim bizdə belə bir fürsət var idi, - və ondan sonra müraciət etsin o təşkilata ki, gəlin bizimlə bərabər Azərbaycana qarşı vuruşun. Yəni, Rusiyanı bu işlərə cəlb etmək istəyir və bu, növbəti təxribatdır, mən əminəm ki, buna müvəffəq olmayacaq.

**- İyul ayında Ermənistan Tovuza hücum edərkən daha başqa bir şeyi hədəfləmiş ola bilərdimi? Misal üçün, hədəfdə enerji təhlükəsizliyini zəiflətmək ola bilərdimi? TANAP, Bakı-Tbilisi-Ceyhan xətləri ağlıma gəlir.**

- Bəli, təbii ki, o da ola bilərdi. Bir neçə hədəfi var idi. Çünki ondan öncəki dönəmdə bəyan etmişdilər ki, əgər Dağlıq Qarabağ ətrafında döyüşlər olarsa, onlar bizim strateji infrastruktur layihələrimizi vurmağa hazırdırlar - Səngəçal Neft-Qaz Terminalı və boru xətti. Ona görə Tovuz bölgəsində hücumun bir məqsədi də o idi ki, onlar test edirdilər, haraya qədər girə bilərlər. Çünki orada onların əsas məqsədi dövlət sərhədini keçmək, Azərbaycan torpaqlarını işğal etmək və həmin TANAP boru xəttinə yaxınlaşmaq, yaxud da ki, onu nəzarətə almaq idi. Ancaq bu, alınmayanda geri çəkildilər, bütün vasitəçilərdən imdad dilədilər. Mən də söylədim ki, Ermənistan torpaqlarında bizim hədəfimiz yoxdur. Ona görə dörd gündən sonra hücum dayandı.

Başqa bir səbəb ola bilər. Mən bununla bağlı öz fikirlərimi bildirmişdim. Hazırda Ermənistanda çox dərin böhran yaşanır, həm siyasi, həm iqtisadi. Bu böhran nəticəsində Ermənistanda siyasi əlaqələr pozulub. Çünki indi Paşinyan hakimiyyəti əsas müxalifət liderlərini həbsə atdırır. Misal üçün, əsas müxalifət partiyasının sədrini deputat toxunulmazlığından məhrum etdi, həbsə atdı. İki keçmiş prezidentə qarşı cinayət işi açıldı. Söz azadlığı, sərbəst toplaşma azadlığı yoxdur. Konstitusiya Məhkəməsini zor gücü ilə məhv etdi, öz adamlarını gətirdi. Ona görə Ermənistanın daxilində artıq çox ciddi bir narahatlıq var. Paşinyan ictimai fikri yayındırmaq üçün bu hücumu təşkil edir. Rusiyanı cəlb etmək, strateji infrastrukturumuzu məhv etmək, daxildəki vəziyyəti sabitləşdirmək və Azərbaycan torpaqlarının bir qismini işğal etmək və ondan sonra müzakirələrdə öz mövqeyini gücləndirmək.

**- Hörmətli Prezident, icazənizlə son iki sualımı vermək istərdim. İndi bu cür münaqişə, savaş və böhranların olduğu bölgələrdə qara təbliğat da meydana çıxır. Ermənistan hücumlarını başladığı gündən etibarən bu mövzuda - qara təbliğat mövzusunda nə kimi müşahidələriniz oldu. Dəyərləndirmənizi xahiş edə bilərəmmi?**

- Bilirsiniz, Azərbaycana qarşı qara təbliğat bir dəqiqə, bir saniyə dayanmır. Bunun bir neçə səbəbi var. Birincisi, erməni lobbisi bizə qarşı daim hərəkətdədir. Azərbaycanı qaralamaq, bizim üstümüzə ləkə atmaq, bizim imicimizi korlamaq səyləri dayanmır. Dünyanın bir çox ölkələrində erməni lobbiləri var. Bu, heç kəs üçün sirr deyil. Müntəzəm olaraq mütəmadi qaydada bizə hücum edirlər. Olmazın yalanlarını, iftiralarını uydururlar. Bu münaqişə dönəmində təbii ki, erməni lobbisi bütün gücünü səfərbər edib və bizə qarşı yeni qara təbliğat səylərini ortaya qoyubdur. Ancaq bizə yapışmır. Mən demişəm, dəlil verin, sübut verin, fakt verin. O cümlədən Fransa prezidentinə, - o, mənə telefonla iki dəfə zəng etmişdi, - dedim ki, fakt verin. Sentyabrın 27-dən artıq 8 gün keçir.

**- Makron nə deyir?**

- Heç nə demir, deyir ki, bizdə kəşfiyyat məlumatı var. Dedim verin bizə, haradadır bu kəşfiyyat məlumatı? Yoxdur bu, ola da bilməz.

**- Sizin kəşfiyyatınız Ermənistanla bağlı nə deyir?**

- Hansı mövzuda?

**- Əlinizdəki kəşfiyyat materiallarında, Ermənistandakı xarici güclərdən bəhs edilir. Livandan, Suriyadan gələn...**

- Bizdə təbii ki, belə məlumatlar var və bu məlumatlar əsaslıdır, artıq onlar dəqiqləşdirilir. Biz çox məsuliyyətli dövlət olduğumuz üçün rəsmi bəyanatlarda buna toxunmuruq. Təbii ki, mediada, ondan sonra siyasətçilər, politoloqlar arasında belə məlumatlar dolaşır. Amma biz bunu gərək təsdiqləyək. Bizdə əvvəldən kəşfiyyat məlumatı var idi ki, Dağlıq Qarabağa terrorçular gətirilib yetişdirilir, onlara təlim keçilir.

**- Hansı terror qruplaşmaları?**

- PKK terror qruplaşmaları. Bu barədə çoxlu məlumatlar var idi. Hələ bir neçə il bundan öncə biz bu məsələni beynəlxalq platformalarda qaldırırdıq. Onlar təlim alır və istisna edilmir ki, bu gün də var. Sadəcə olaraq, mənim əlimdə yüzdə yüz fakt olandan sonra bunu deyəcəyəm. Bu gün ehtimal çox böyükdür. Amma Ermənistandan və bəzi başqa ölkələrdən fərqli olaraq biz 100 faiz təsdiqini tapmamış məlumatı ortaya atmırıq.

Bir misalı da gətirə bilərəm, bizə qarşı iddia qaldırdı ki, Türkiyənin F-16 təyyarəsi Ermənistanın SU-25 təyyarəsini vurdu. Dedim ki, sübut verin. Bizdə məlumat var, bunu bütün bu qara təbliğatın üzvləri ortaya atdılar. İndi özləri gördülər ki, bu, yoxdur. Amma bir adam bizdən üzr istədimi? Xeyr. Bizə böhtan atdılar, ləkə vurdular, ondan sonra gördülər ki, bu, yalandır. Amma üzr istə.

**- Bəli, silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun sərəncamına verilməsi yanılmıramsa, bu hərəkatın gedişinə çox təsir etdi.**

- Doğrudur. Bunun çox böyük təsiri var. Maşallah, bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə gücləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda, canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi. Ona görə bu mükəmməl texnoloji intellektual məhsul Türkiyə xalqının potensialını göstərir. Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir. Biz özümüzü müdafiə edirik, öz vətəndaşlarımızı müdafiə edirik, öz ərazi bütövlüyümüzü saxlamaq istəyirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə mənsub olan bizə qalmalıdır. Otuz ildir ki, ermənilər bizim qədim torpağımızı istismar edirlər. İnsanlara o torpaqlara qayıtmağa icazə vermirlər. Beynəlxalq vasitəçilər biganə qalır, məhəl qoymur. Belə olan halda Azərbaycan özü bunu edəcək.

(Ardı 6-cı səhifədə)

# “Biz qüdrətli ordunun qalib əsgərləriyik”

*Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə əks-hücum əməliyyatını uğurla davam etdirir. Əməliyyat başlayandan bəri əldə edilən qələbələr əsgər və zabitlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının nəticəsidir. Ordumuzun döyüşdə qazandığı bu qələbələr Böyük Qələbəni yaxınlaşdırır. Neçə-neçə yaşayış məntəqəsi, strateji yüksəkliklər, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qəhrəmanlıq göstərdiyi, şəhid olduğu mövqe, bu sıradan Talış kəndi, Suqovuşan, Cəbrayıl rayonu düşməndən azad edildi. Ordumuz yaxın günlərdə torpaqlarımızı işğaldan tamamilə azad edəcəkdir. Döyüşçülərin təəssüratlarını dərc edirik.*



**Kiçik çavuş Vasif Allahverdiyev:**

- Əlbəttə, qələbə bizimdir. Biz öz torpaqlarımız uğrunda döyüş aparırıq. Heç kimin torpağında gözümüz yoxdur. Erməni faşistləri gəlib bizim torpaqlarımızı işğal edib. Tarixi torpaqlarımızı viran qoyublar, yandırıblar. Axı o torpaqlarda əcdadlarımızın, ata-babalarımızın, doğmalarımızın məzarları qalıb. Doğma yurd yerlərimiz otuz ilə yaxındır ki, mənfur düşmənin əsirliyindədir. Onu azad etmək, minlərlə soydaşımızı elinə, obasına qovuşdurmaq bu gün bizim ən ali vəzifəmizdir. Son düşmən ayağı torpağımızdan çəkilənədək döyüşümüzü davam etdirəcəyik. Ermənilər illərlə torpaqlarımızı işğalda saxladılar ki, biz Qarabağımızı, Şuşamızı unudaq. İnsan öz doğma yurdunu, dünyaya göz açdığı yeri necə unuda bilər? Heç zaman. Bu gün qüdrətli ordumuz erməni işğalçılarının yüzlərlə canlı qüvvəsini, hərbi bazalarını məhv edir, düşmən əsgəri döyüş postunu qoyub qaçır. Rəşadətli ordu-



muz strateji əhəmiyyətli yüksəklikləri erməni işğalçılarından azad edir. Xalqımız cəbhədən qələbə xəbərləri alır. Ali Baş Komandanımızın qətiyyətli mövqeyi, xalqımızın döyüşən orduya dəstəyi, həmrəyliyi biz döyüşçülərdə ruh yüksəkliyi yaradır. Bu gün səbirsizliklə gözlədiyimiz yüksəkliklərdə, yaşayış məntəqələrimizdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Tezliklə qüdrətli ordumuz Qarabağımızı düşməndən azad edəcək, xalqımız illərdir gözlədiyi Böyük Qələbə xəbərini ordumuzdan eşidəcək. Ən böyük arzum Azadlıq meydanında erməni faşistləri üzərində qazanılan Böyük Qələbəyə həsr olunacaq paradda iştirak etməkdir.

**Əsgər Oruc Abbaslı:**

- Döyüş gedir. Torpaqlarımız bir-bir azad olunur. Hər birimizdə döyüş əzmi, qələbə əzmi var. Sona qədər döyüşüb Qarabağımızı, Şuşamızı erməni işğalından azad edəcəyik. Azərbaycan əsgəri kimi torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirakımla qürur duyuram. Erməni əsgərləri səngərlərini qoyub qaçırlar. Qorxu içindədirlər. Döyüşmək istəmirlər. Arxada onları ölümlə hədələyirlər. Nə qədər döyüş texnikalarını, silah-sursatlarını saz vəziyyətdə qənimət kimi götürmüşük. Düşmən bizim mülki əhalini hədəfə alır, ona görə ki, çox aciz və qorxaqdır. Ordumuzun gücü qarşısında Ermənistan silahlı birləşmələri tab gətirə bilmir. Bizim bölmələrimiz düşmənin bütün atəş nöqtələrini qətiyyətlə susdurur. Sevinirik ki, tezliklə atababa torpaqlarından qaçqın, köçkün düşən soydaşlarımız, nəhayət, uzun illərdən sonra öz tarixi torpaqlarına qayıdacaqlar. Sevinirik ki, Azərbaycanımızın ərazi bütövlüyü tezliklə bərpa olunacaq. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" fikri hər bir əsgərin döyüş şüarına çevrilib. Torpaqlarımızın erməni işğalçılarından tamamilə azad olunacağı günü səbirsizliklə gözləyirik. Qarabağ Azərbaycanımızın ürəyidir. Bu gün Azərbaycan tarixinin ən şərəfli günlərini yaşayır. Qarabağımız uğrunda ağır, qanlı döyüşlər gedir. Azərbaycan əsgərləri düşmənə gözünü belə açmağa imkan vermir, onları səngərində, postunda məhv edirik. Qüdrətli ordumuzun peşəkarlığı sayəsində düşmənin bölmələri ağır itkilərlə bəzi istiqamətlərdə geri çəkilməyə məcbur edilir. Biz qələbəmizə inanırıq. Biz qələbəyə doğru inamla addımlayırıq.

**Əsgər Məhəmməd Əliyev:**

- Son döyüşlərdə biz düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikalarını məhv etdik. Şanlı ordumuzla qarşı-qarşıya gələ bilməyəcəyini dərk edən düşmən yenə də məkrli niyyətindən əl çəkmir və təxribat törətmək üçün daima hiyləgərliklə məqam gözləyir. Gücümüz, iradəmiz və peşəkarlığımız nəticəsində düşmənə layiqli və sarsıdıcı zərbələr endiririk. Məqsədimiz birdir - işğalda olan torpaqlarımızı yağı düşməndən azad etmək. Məqsədimizə nail olmaq üçün isə ordumuza heç bir güc əngəl ola bilməz. Əks-hücum komandası verilən andan etibarən düşmən üzərinə şığıyaraq, irəliləyirik. Onlara göz açmağa imkan vermirik. Qisas zamanıdır. Ali Baş Komandanımızın dediyi kimi: “Biz haqq yolundayıq!”

Gərgin döyüşlər nəticəsində işğalda olan torpaqlarımızın bir qismi azad edildi. Amma biz bununla kifayətlənməyəcəyik. Daha da irəliləyəcəyik. Əldə etdiyimiz uğurların sayını artıracağıq. Xalqımıza Qələbə xəbərini verəcəyik. Etiraf edim ki, ağır döyüşlər gedir. Amma biz bütün gücümüz və iradəmizlə döyüşürük. Bir addım da olsun geri çəkilən deyilik. Onları məğlub edəcəyik. Çünki biz torpaqlarımızın işğalı ilə heç zaman barışmayacağıq. Bu illərin həsrəti və qəzəbidir. Düşünürdülər ki, Azərbaycan Ordusuna qalib gələcəklər. Artıq görürlər ki, biz nəyə qadirik. Qısa vaxt ərzində bir neçə kəndi azad etdik və strateji mövqeləri geri qaytardıq. Gücümüzə tab gətirə bilməyən xain düşmən isə çıxış yolunu yalnız qaçmaqda görür. Silah və texnikalarını döyüş meydanında qoyub qaçmaqla canlarını qutarmaq istəyirlər. Canlarını qurtarmaq üçün onların bir yolu var: torpaqlarımızı tamamilə tərk etsinlər. Əgər tərk etməsələr, hamısını məhv edəcəyik. Onların necə vəhşi olduqlarını yaxşı bilirik. Xalqımızın başına açdığı oyunları, soyqırımlarını unutmamışıq. Dinc əhaliyə hücum çəkib onları evlərindən didərgin saldılar, amansızcasına qətlə yetirdilər, torpaqlarımızı işğal etdilər. Bunları necə unutmaq olar?! Yenidən Kəlbəcərimizə, Zəngilanımıza, Laçınımıza... getməyimizə çox az qalıb. Qələbə bizimlədir!

**Əsgər Azad Əhmədli:**

- Düşmən təxribata əl atdıqda, atəşkəsi pozduqda heç nədən qorxub çəkinmədən əks-hücum əməliyyatı ilə inamla irəli atıldıq və qısa vaxt ərzində bir neçə kəndimizi ermənilərdən təmizlədik. Onlardan qisa-



sımızı alaraq, torpaqlarımızı azad edirik. Hər kəs bir nəfər kimi düşmən üzərinə şığıyır. Döyüş ruhumuz olduqca yüksək səviyyədədir. Artıq erməni əsgəri nə edəcəyini bilmir. Hamısı təşviş içindədir. Düşmən düşünürdü ki, bizim orduya qalib gələ bilər. Amma bilmirlər ki, biz illərdir həsrətlə bu günü gözləyirdik. Nəhayət, bu gün gəlib çatıb. Ordumuzun peşəkarlığı sayəsində düşməni darmadağın edirik. Düşmən çoxlu sayda itkiyə məruz qalıb. Silah və sursat anbarlarını, texnikalarını və şəxsi heyətini məhv etmişik. Şəxsi heyətimizin yüksək döyüş qabiliyyəti sayəsində bir neçə strateji cəhətdən əlverişli yüksəkliklər azad edildi və döyüşlərimiz davam edir. Bunların hamısı bizdə ruh yüksəkliyi yaradır. İrəli getməyə can atırıq. Çünki bu illərin həsrətidir. Hər kəndi azad etdikcə sevinirik. Uzun müddətdir ki, tarixi torpaqlarımıza ayağımız dəymirdi. Amma bu gün Ali Baş Komandanımızın rəhbərliyi ilə arzumuza çatırıq. Yenidən doğma elimizə, obamıza qovuşuruq.

Çətin və ağır döyüşlər getsə də, biz bunları hiss etmirik. Çünki əzəli torpaqlarımız bizi gözləyir. Bu gün sevincliyəm ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə mən də iştirak edirəm. Hamımız savaşa ürəklə qatılırıq. Azad etdiyimiz torpaqlarımızı isə inamla qoruyuruq. Şanlı Azərbaycan Ordusundan qorxan düşmən necə döyüşəcəyini artıq bilmir. Hamısı həyəcan içindədir. Müqavimət göstərmələrinə baxmayaraq, biz daha da irəli gedəcəyik. Onlara göz dağı verəcəyik. Bilsinlər ki, torpaqlarımızda erməni əsgəri ola bilməz. Rədd olsunlar Azərbaycan torpaqlarından. Döyüş meydanından hər kəsə demək istəyirəm ki, əmin olsunlar, Zəngilanımız, Qubadlımız, Laçınımız... şanlı və güclü ordumuzun sayəsində yenidən öz sahibinə geri qayıdacaq. O günə çox az qalıb. Tezliklə xalqımıza Böyük Qələbənin sevincini yaşadacağıq.

**Əsgər Fərid Səmədov:**

Azərbaycan cəmiyyətində hər zaman ordu amili, ordu dəyərləri uca tutulub və artıq bu bizim amalımıza çevrilib. İllərdir bu qiymətli sərvətimiz dünyanın mütərəqqi mənəvi dəyərlərindən də istifadə edərək zənginləşir, püxtələşir və inkişaf edir. İnkişafının qürur duyulası dönəmində olan Azərbaycan Ordusunun şəxsi heyəti bu gün yaşadığı ömrün tarixini yazmaqla yanaşı, ömrünü xalqının, millətinin, ordusunun inkişafına həsr edir, onun da tarixinin yazılmasında yaxından iştirak edir. Sözsüz ki, örnək ola biləcək bir ömür yaşamağın və yazmağın özü fədakarlıq, eyni zamanda, hünərdir.

Torpaqlarımızın işğalçılardan təmizlənməsində biz əsgərlərin üzərinə böyük məsuliyyət düşür. Döyüş zamanı döyüş hazırlığının əhəmiyyəti çox böyükdür. Yüksək döyüş hazırlığının və komandirlərimizin sayəsində müxtəlif qoşun növləri arasında lazımi əlaqə yaradır, səmərəli hücum strategiyasının təmin olunmasına dəstək verir, düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və məntəqələrini, canlı qüvvəsini məhv edirik.

Azad olunan torpaqlarımıza ayaq basdıqca yaşadığımız ruh yüksəkliyini sözlə ifadə etməyə çətinlik çəkirəm. Göz yaşımıza hakim ola bilmirik. Bilirik ki, bu əldə edilən uğurlarla şəhidlərimizin, törədilən faciələrin qisasını alırıq. Ali Baş Komandanımızın qeyd etdiyi kimi: “Əgər erməni əsgəri Azərbaycan torpaqlarında ölmək istəmirsə, rədd olsun bu torpaqlardan”.

Vətən mənim və əsgər yoldaşlarım üçün qürur yeridir. Əslində, bu gün biz cismən azad etdiyimiz yaşayış məntəqələrimizdə olsaq da, ruhən Ağdamda, Laçında, Cəbrayılda, Xankəndidə, Şuşadayıq. Doğma ocaq, yurd-yuva həsrətiylə döyüşürük. Sevinirəm ki, bu gün əsgər kimi torpaqlarımızın azad olunmasında mənim də payım var.

**(Ardı 5-ci səhifədə)**

# “Biz qüdrətli ordunun qalib əsgərləriyik”

(Əvvəli 1-ci səhifədə)

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elvin Qədirov:**

- Sentyabrın 27-də ordumuzun bölmələri düşmənin hücumunun qarşısını alaraq əks-hücum əməliyyatına başlayıb. Tam əminliklə deyə bilərəm ki, bu əməliyyat işğalda olan torpaqlarımızın azad oluması ilə başa çatacaq. Ən müasir silahlarla təchiz olunan ordumuzun bölmələri düşməni əzəli və əbədi torpaqlarımızdan çıxararaq, xalqımıza qələbə xəbərləri müjdələməkdədir. Bizi bu qələbələrə ruhlandıran xalqımızın sevgisi, inamı və dəstəyidir.

Ali Baş Komandanımızın "Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik" dediyi kəlamlarla qürur duyduq.

Ərazi bütövlüyümüz uğrunda döyünən ürəklərimizi heç



bir maneə durdura bilməz. Bir döyüşçü olaraq ən böyük arzum - işğalda olan bütün torpaqlarımızı azad edəcək qalib ordunun sıralarında olmaqdır. Qalibiyyət Azərbaycan Ordusunundur.

**Zabit Özal Hüseynov:**

- Zabit kimi əsgərlərimlə həmişə torpaqlarımızın işğaldan azad edilməsindən, qələbədən danışırıq, qəhrəmanlardan, şəhidlərdən danışırıq. Xalqın bizə dəstəyi döyüş əzmimizi, qələbə ruhumuzu daha da yüksəldir. Sentyabrın 27-də düşmən mövqelərimizə hücum etdi. Belə hücumlara həmişə hazır olan əsgərlərimiz bunun qarşısını qətiyyətlə aldı, əks-hücum əməliyyatına əmr verildi. Biz də bu əmri torpaqlarımızın işğaldan azad edilməsi üçün başlayan döyüş əmri bildik. Düşmənin mövqelərinə kəskin hücumlarımız onu ağır itkilərə məruz qoydu. Neçə-neçə döyüş texnikası, canlı qüvvə itirən düşmən geri çəkilməyə məcbur oldu. Nəticədə ilk günlər yaşayış məntəqələri, strateji yüksəkliklər azad edildi.



Bu, düşmənə ağır məğlubiyyət acısı, bizə qürur, sevinc yaşadır. Biz əks-hücumu qələbələrlə davam etdiririk.

Döyüşlər tam qələbəylə başa çatacaq. Ordumuz buna qadirdir. Düşmən Azərbaycan əsgərinin qətiyyətindən, döyüş hazırlığından, qələbə ruhundan qorxur. Ona görə də döyüşü davam etdirmir, geri çəkilir, qaçır. Biz isə xalqın güclü dəstəyini aydınlığıyla hiss etdiyimizdən daha qətiyyətlə, daha böyük istəklərlə döyüşürük. Bu döyüşü xidmətə başladığımız gündən arzulayırdıq. İndi həmin məqamdır. Hər birimiz qalib gəlmək, Ali Baş Komandanın döyüş əmrinin qələbəylə tamamlanması üçün döyüşürük. Torpaqlarımız işğaldan tamamilə azad ediləcək. Həmin günə Böyük Qələbə günü deyəcəyik.

Döyüşlər davam edir. Biz də qətiyyətlə, qələbə üçün döyüşürük... Biz qalib gələcəyik!..

**Əsgər Rəbil Zahidov:**

- 2016-cı ilin Aprel döyüşlərində orta məktəbdə oxuyurdum. Bizdən yaşca böyük qonşularımız döyüşə getmək istədilər. Onların istəyinə əməl edilmədi, "Sizə ehtiyac yoxdur", - deyilmişdi. Onlar da xidmət etmək, döyüşmək, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşən əsgərlərin sırasında olmaq istəyirdilər.

Sentyabrın 27-də Ermənistanın hərbi birləşmələri hücuma keçdi. Təmas xəttində xidmət edən əsgərlərimiz bu hücumun qarşısını qətiyyətlə aldılar. Ali Baş Komandan əks-hücum əmri verdi. Mənim xidmət etdiyim bölmə də döyüşlərə cəlb olundu. Döyüşürük. İlk döyüşlərdə qazanılan qələbələr ordumuzun qüdrətinin təsdiqidir. Düşmən inadkarlıqla müdafiə olunsa da, ordumuzun əks-hücumunun qarşısını ala bilmir. Buna nə gücü çatır, nə döyüş hazırlığı, nə də qətiyyəti. Biz torpaqlarımızın azad olunması döyüşlərindəyik, onlar işğalı davam etdirmək üçün döyüşürlər. Belə döyüşlərdə həmişə vətənpərvərlik qalib gəlib.

Xalqımız ordumuza güvənir, inanır. İnanır ki, bu döyüşlər Azərbaycan Ordusunun qələbəsiylə başa çatacaq. Biz torpaqlarımızı işğaldan azad edəcəyik. Mən də, əsgər yoldaşlarım da dövlətə, dövlətçiliyə, Hərbi anda sədaqətlə döyüşürük. Qazanılan qələbələr ordumuzu, xalqımızı Böyük Qələbəyə yaxınlaşdırır.

Döyüşürük. Əzmlə, qətiyyətlə döyüşürük. Torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik. Şəhidlərimizin qanı yerdə qalmayacaq!

**Kiçik çavuş Sərxan Kərimov:**

- Düşmən sentyabrın 27-də erkən saatlarda müxtəlif istiqamətlərdən hücuma keçdi. Az bir müddət ərzində ordumuz düşmənə layiqli cavab verərək geri oturtdu və əks-hücum əməliyyatına başladı. Ordumuzun qəhrəman zabit və əsgərləri bu döyüşlərdə böyük hünər və rəşadət göstərirlər. Düşmənin silahlı birləşmələri igid oğullarımızın qəhrəmanlığı qarşısında acizdir, şərəf və ləyaqət simvolu olan döyüş bayraqlarını, silah və texlikalarını, hətta meyitlərini belə qoyaraq geri qaçırlar.

Müzəffər ordumuz xalqımıza, millətimizə Böyük Qələbənin bir addımlığında olduğunu ard-arda verdiyi qələbə xəbərləri ilə müjdələyir. Ali Baş Komandanın rəhbərliyi ilə igid oğullarımız düşmənə döyüş meydanında göz açmağa imkan vermir, yerindəcə məhv edirlər. Düşməni əzəli torpaqlarımızdan qovmaq, illərdir işğalda olan torpaqlarımızı azad etmək bizim haqq işimizdir. Şanlı ordumuz bu haqq savaşından Böyük Qələbə ilə çıxacaq. Qarabağ Azərbaycandır və qələbə bizimlədir.

**Əsgər Elxan Arasov:**

- Bu günlərdə cəmiyyətimizdə ruh yüksəkliyi sözlərlə ifadə olunmayacaq səviyyədədir. 7-dən 70-ə kimi hər kəs orduya gəlmək, əzəli və əbədi torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək istəyir. Xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşərək həmrəylik nümayiş etdirir, onun "Biz birlikdə güclüyük" şüarının böyüklüyünü dərk edir. Torpaqlarımızın işğaldan azad edilməsində az da olsa xidmətinin olmasını istəyir. Bu gün mən də müqəddəs vəzifəni yerinə yetirən cəsur, qorxubilməz oğullarımızla çiyin-çiyinə olmaqdan qürur duyuram. Bizim güclü ordumuz var. Azərbaycan Ordusu istər təşkilati baxımdan, istər təchizat baxımından, istərsə də döyüş keyfiyyətləri baxımından çox yüksək səviyyədədir və bölgənin ən güclü ordusudur. Bu gün ordumuz öz gücünü döyüş meydanında göstərir. Qətiyyətlə deyə bilərəm ki, Qələbə bizimlədir.



**Əsgər İbrahim Əhmədov:**

- Respublikamızın bütün bölgələrində olduğu kimi, Balakəndə də sentyabrın 27-də düşmənin silahlı birləşmələrinin yeni əraziləri işğal etmək istəkləri, dinc sakinlərimizi məqsədyönlü şəkildə atəşə tutmaları, mülki insanlara qarşı terror vasitələrindən istifadə etmələri gənclərimiz tərəfindən ciddi narahatlıq və narazılıqla qarşılandı. Mən də bir çox könüllülər kimi ordu sıralarında olan igid döyüşçülərimizlə birlikdə vuruşmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdim. Bu gün yenidən qüdrətli ordumuzun, qəhrəman döyüşçülərimizin sırasında olmaqdan fəxarət hissi keçirirəm. Artıq düşmənin həyata keçirdiyi hücum əməliyyatının qarşısı qüdrətli ordumuz tərəfindən alınaraq layiqli cavablar verilib və verilir. Bir-birinin ardınca sıralanan qələbə xəbərləri xalqımızda, millətimizdə böyük ruh yüksəkliyi yaratmaqdadır. Tam əminliklə deyirəm ki, bu gün hər bir vətəndaşımız ordu sıralarında olmaq və işğaldan azad olunacaq torpaqlarımız üçün döyüşməyə can atır. Bütün azərbaycanlıların ürəyi Qarabağda döyünür. Bu haqq savaşında Qələbə bizimdir.

**Əsgər Samuran Əliyev:**

- Neçə illərdi beynəlxalq təşkilatların vasitəçiliyi baş tutmadı. Dünya ictimaiyyəti Ermənistanı işğalçı dövlət kimi rəsmən tanımadı. Cəzasızlıq həmişə yeni cinayətlər yaradır. Ermənistan nəinki atəşkəsi pozurdu, həm də irimiqyaslı təxribatlar törətməyə cəhd edirdi. 2016-cı ilin aprelində, 2020-ci ilin iyulunda belə təxribatlar törətmək istədi. Azərbaycan Ordusu bu təxribatların qarşısını qətiyyətlə aldı.



Hər dəfə ağır itkilərə məruz qalan düşmən məğlubiyyətlərdən nəticə çıxartmadı. Bilməliydi ki, Azərbaycanda ikinci erməni dövləti yarada bilməyəcək.

Düşmən sentyabrın 27-də təxribatlar törətdi. Bölmələrimiz bu təxribatın da qarşısını qətiyyətlə aldı, əks-hücuma keçdi. Mənim xidmət etdiyim bölmə də bu əməliyyata cəlb edildi. Komandirlərimiz dedilər ki, Ali Baş Komandanın əks-hücum əmrini torpaqlarımızın işğaldan azad edilməsi əmri kimi yerinə yetirməliyik. Döyüşə bu əmrlə başladıq. Qətiyyətlə döyüşdük. Düşmən ciddi müqavimət göstərsə də, onun müdafiə səddi yarıldı. Əsgərlərimiz bu uğuru qətiyyətlə, mərdliklə davam etdirdilər. Döyüşlərdə biz ilkin qələbələr qazandıq. Yaşayış məntəqələri, strateji yüksəkliklər nəzarətimiz altına keçdi. Bu, düşmənin acı məğlubiyyəti, bizim qələbə sevincimiz oldu. Əks-hücum əməliyyatını uğurla davam etdiririk.

Xalqımız bilsin ki, bu döyüş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adıyla başlayan elan edilməyən müharibənin sonu olacaq. Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcək.

Döyüşlərdə şəhid olanların da əvəzindən vuruşuruq. Onların qisası alınır, alınacaq. Şəhidlərimizin ruhunu narahatlıqdan Böyük Qələbəylə xilas edəcəyik.

Yaxın vaxtlarda ictimaiyyət əsgərlərimizi qalib olaraq qarşılayacaq. O günün ərəfəsindəyik!..

# Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib

(Əvvəli 3-cü səhifədə)

**- Gəncəyə hücumda bir erməni vətəndaşınızın yaralandığı məlumatını paylaşdım. Bu arada, cəbhədə gecə və gündüz müşahidə aparmaq imkanımız oldu, komandirlər Sizin onlara telefonla zəng etdiyinizi bizə söylədilər.**

- Bəli, təbii ki, bu, Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni, mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil.

O ki qaldı, mənim komandirlərə telefonla zəng etməyimə, təbii ki, onlar tarixi ədaləti bərpa edirlər. Onlar öz həyatlarını risk altında qoyurlar. Onlar qəhrəmandırlar və onlar torpaqlarımızı xilas edirlər, azad edirlər, qaytarırlar. Madagizin işğaldan azad edilməsi çox böyük strateji önəm daşıyır. Qəsəbə o qədər böyük olmasa da, bunun strateji önəmi çox böyükdür. Oranı götürmək çox çətin bir işdir. Bunu hər bir hərbçi deyər. İnanılmaz çətin bir işdir. Amma o götürüldü, Madagizdə indi Azərbaycan bayrağı qaldırıldı və həmin gün o qəsəbəyə tarixi adı qaytarıldı - Suqovuşan. Bu, bizim tarixi adımızdır.

Cəbrayıl şəhərini götürmək böyük qəhrəmanlıq tələb edir. Çünki bir daha demək istəyirəm ki, bu 30 il ərzində, atəşkəs rejimi dönəmində orada bir neçə xətt istehkam quruldu, özü də çox möhkəm. Bir də ki, o bölgənin relyefi də təbii istehkamdır. Yəni, Dağlıq Qarabağ dağlarda yerləşir. Yəni, biz aşağıdan yuxarıya gedirik. Bunun nə qədər çətin olduğunu hər kəs anlayar. Ona görə Azərbaycan əsgəri, Azərbaycan zabiti, generalı şücaət, rəşadət, cəsarət göstərir, canı, qanı bahasına ərazi bütövlüyümüzü təmin edir. İnşallah sona qədər irəliyə gedəcəyik.

**- Qarabağ, işğal edilən torpaqlar yenidən Azərbaycana qaytarılandan sonra orada yaşayan ermənilərə nə deyəcəksiniz?**

- Mən artıq öz sözümü dedim. Mən bir neçə gün bundan öncə bizim yaralı əsgərlərimizin yanına getdim, hərbi hospitalda onlarla görüşdüm. Onlara təşəkkürümü bildirdim və eyni zamanda, onlarla görüş əsnasında erməni xalqına müraciət etdim. Anlayırdım ki, onların yanında bunu demək o qədər də asan deyil, çünki onlar ermənilər tərəfindən vurulub. Amma dedim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Erməni xalqı öz hökumətini məsuliyyətə cəlb etməlidir. Öz hökumətinin yarıtmaz, çirkin siyasətinin nəticəsində bu döyüşlər baş verdi. Bizim mövqeyimiz dəyişməzdir. Torpaqlarımız azad olunandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar bir yerdə yaşayacaqlar. İki toplum çərçivəsində, bir ölkə ərazisində. Bu gün Azərbaycanda minlərlə erməni var. Siz də qeyd etdiyiniz kimi, Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə ermənidir. Burada ermənilər yaşayır. Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Erməni xalqı öz hakimiyyətinin əsiridir. Təəssüflər olsun ki, Paşinyan hakimiyyəti iqtidara gələndə çox vədlər verdi. Biz də ümid edirdik ki, artıq o köhnə kriminal rejim tarixə atıldı. Amma bunun yerinə yeni rejim gəldi, o rejim ki, artıq öz xalqını bəlaya saldı. O rejim ki, indi bizim mülki insanlarımızı, əsgərlərimizi öldürür. Mən tam əminəm ki, erməni və Azərbaycan xalqları barışacaq. Bu gün bir çox ölkələrdə ermənilər və azərbaycanlılar bir yerdə yaşayırlar. Gürcüstanda, orada 300 minə yaxın azərbaycanlı, 200 minə yaxın erməni var. Bəzən onlar bir kənddə yaşayırlar. Onların arasında problem yoxdur. Türkiyədə, Rusiyada, - Rusiya vətəndaşı olan azərbaycanlıların sayı 700 minə yaxındır, - bir yerdə yaşayırlar. Heç bir problem yoxdur. Nə üçün burada yaşamasınlar? Onsuz da yaşayıblar bir yerdə. Mənim xatirəmdədir, 1982-ci ildə mərhum atamla birlikdə Dağlıq Qarabağa - Şuşaya getmişdik. Bizim böyük şairimiz Vaqifin məqbərəsi açılırdı. Bu məqbərənin açılışı mərasimində erməni və Azərbaycan şairləri şeirlər deyirdilər, Azərbaycan dilində, erməni dilində. O bir dostluq bayramı idi. Yəni, o, mənim şahidi olduğum mənzərədir. Bizim Bakı şəhərində ermənilər yaşayırdı. Yəni, bizim heç bir problemimiz yox idi. Biz istəyirik ki, yenə də birlikdə yaşayaq. Yenə də Ermənistanla yaxşı qonşular kimi yaşayaq. Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq.

**- Mərhum atanızın Sizə Dağlıq Qarabağla bağlı vəsiyyəti olubmu, olubsa nə idi?**

- Atamın yolu mənim üçün bir işıq yoludur. Onun siyasətini davam etdirmək mənim onun oğlu kimi və Prezident kimi borcumdur. Mən ilk dəfə prezident seçiləndə andiçmə mərasimində dedim ki, Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və bu yolun Azərbaycan üçün yeganə yol olduğunu demişdim. Bütün sahələrdə - istər xarici siyasət sahəsində, istər iqtisadiyyat, sosial, o cümlədən Dağlıq Qarabağ məsələsində bu yola sadiqəm. Çünki ona da təzyiqlər olmuşdur. Onun dövründə də təzyiqlər olmuşdu ki, Dağlıq Qarabağa müstəqillik verin, Dağlıq Qarabağ sizdən ayrıldı, sizdən qopdu. O, təzyiqlərə tab gətirdi, dözdü. Azərbaycan xalqının maraqlarına zidd olan heç bir sənədə qol qoymadı. Çünki o xalqımızın Lideri idi. Qarabağ məsələsində mənim də mövqeyimdə heç vaxt tərəddüd olmamışdır. Mən 17 il bundan əvvəl nəyi demişəmsə, bu gün də deyirəm - Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq.

**- Bir millətin iki dövlətindən Azərbaycanın Prezidenti cənab İlham Əliyevə çox təşəkkür edirəm. Belə bir vəziyyətdə, müharibə şəraitində bizi qəbul etdiniz. Bir Ali Baş Komandan olaraq, sağ olun.**

- Mən təşəkkür edirəm və şadam ki, bizim söhbətimizin sonunda siz atamın çox məşhur kəlamını yada saldınız, Heydər Əliyevin sözləridir və indi bütün Türkiyə-Azərbaycan üçün bir işıq yoludur - Bir millət, iki dövlət. Türkiyə-Azərbaycan - tək millət, iki dövlət.

**- Çox təşəkkür edirəm.**

- Sağ olun. Təşəkkürlər.

## "Türkiyə həm Yaxın Şərq bölgəsində, həm də Qafqaz bölgəsində sabitləşdirici rol oynayır"

Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq həm Yaxın Şərq bölgəsində, həm də Qafqaz bölgəsində öz nəticələrini verməkdədir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən səsləndirib.

Türkiyənin bölgədəki sabitləşdirici rolunu vurğulayan dövlətimizin başçısı deyib: "Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir".

Prezident İlham Əliyev qeyd edib ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır: "Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır".

## Müdafiə Nazirliyinin xüsusi xidməti müşavirəsi keçirilib

Oktyabrın 6-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davam etdirilməsi tapşırılıb.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib.

Müdafiə naziri düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat tədbir görüləcəyini bildirib. Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.

## Gecə ərzində cəbhədə döyüşlər davam edib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, oktyabrın 7-ə keçən gecə bütün cəbhə boyu döyüşlər davam edib.

Cəbhənin müxtəlif istiqamətlərində qoşunlarımız ötən günlərdə qazanılan nailiyyəti genişləndirmək məqsədilə döyüş əməliyyatları aparıb. Qarşılıqlı artilleriya atışları qeydə alınıb.

Dünən gün ərzində düşmənə endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılıb. Çoxlu sayda ölən və yaralananlar var.

Artilleriya zərbəsi ilə düşmənin müdafiə sahəsində 1 ədəd tankı və 3 topu sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər var. Bunun nəticəsi olaraq düşmən bölmələrinin şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edir. Digər bölmələrdə döyüş sursatları və yanacaq təminatında da ciddi problemlər mövcuddur. Düşmənin bəzi istiqamətlərdəki müdafiə sahəsində onun bölmələri arasında qarşılıqlı əlaqənin olmaması nəticəsində bir birinə atəş açılıb, ölən və yaralanalar var.

## Ermənistan tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Twitter" hesabı açılıb

Ermənistan tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adına saxta "Twitter" hesabı açılıb.

Bununla əlaqədar Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər: "Vətəndaşları, sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini həmin profilə istinad etməməyə və https:twitter.comModAzerbaijan saxta hesabının bağlanılması üçün şikayət etməyə çağırırıq.

Bildiririk ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi "Twitter" hesabı aşağıdakı linkdədir: https:twitter.comwwwmodgovaz ".

# Döyüş andın qələbədi, Azərbaycan əsgəri!

(Əvvəli 1-ci səhifədə)



Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə döyüşlə həll edən əsgərlərimizin nəfəsiylə daha da ululaşan ucalıqda baxışlarım qeyrət baxışlarla, qüdrət baxışlarla, qəhrəman baxışlarla qoşalaşıb. Bu, təkcə ucalığın hökmü deyil, həm də torpaqlarımızın işğaldan azad edilməsiylə nəticələnəcək döyüşlərdə qazanılan qələbələrin ovqatının hökmüdü. Bu ovqat qələbənin ovqatıdı, qələbə ovqatıdı. Üzü göylərə sarı "Dünyaya döyüş əmrini yerinə yetirmiş əsgərlərimizin əhatəsindən baxmaq səadətinə sığınmaq da səadətdi, Vətən!", - deyirəm. Kəlmələrimi zabit Elçin Quliyevin xoş təbəssümü tamamlayır. "Əsgərlərimiz bu ucalıqdan düşmənə yuxarıdan aşağı baxır", - bu qətiyyət qələbənin hökmüdü, qələbə qazananların qələbə ruhunun hökmüdü.

Birinci Qarabağ döyüşlərində də əsgərlərimizin əhatəsində qələbə ovqatı yaşadığım anlar çox olub. Bu gün qələbələrimizin qanadlı ovqatını tamam ayrı biçim yaşayıram. Bu bənzərsiz ovqat işğalı sonlandıracaq döyüşün bir hissəsi olduğuna görəmi belədi, bir az əvvəl düşmənin neçə-neçə döyüş texnikasını, yük maşınını, yük maşınıyla dolu canlı qüvvəsini məhv edənlərin təvazökarlığını bürümüş qürura görəmi?

Dağların dumanı çiynindən sürüşür...

Baxışlarım dumansız dağların o üzünə baxanların baxışına sarmaşıb...

Bu ucalığa yardım göndərilən yük maşınıyla gəlirdik. Arxamızca, bizimlə dabanbasaraq bir minik maşını gəlirdi. Arada sürücü bizə əl edirdi - uğurlayırdı bizi. Minik maşını elə bil bizi tapşırılmadan, zərurət olmadan yola salırdı. Mövqelərə çatmamış dayanmışdıq. O maşının sürücüsündən kimliyini soruşmuşdum. Ərklə əlini çiynimə qoyub



"Azərbaycan vətəndaşıyam", - demişdi. "O anlarda yaşadığım ovqatın eynini sizin əhatənizdə yaşayıram", - deyirəm. Sürücüylə kəlmələşəndə "Ordu xalqın ordusudu, bu döyüş xalqın döyüşüdü. Qələbələr xalqın qələbəsidi", - düşünmüşdüm. Bu söhbət zabitlərin də, əsgərlərin də könlünü bir az əvvəl qazanılmış qələbə ovqatı qədərincə silələyir. Zabit Elçin Quliyev gözaltı dağlara çökməkdə olan dumanı süzür. Ötəri narahatlıqdı:

- Xalqın dəstəyini görən, nəfəsini kürəyində hiss edən əsgərin qələbə ruhu dönməzləşir. Söhbətləşdiyim kimliyini bildirməyən sürücü xalq adamıdı. Onların ruhu ordunun şəxsi heyətinin ruhu ilə çataqlıdı. Onlar yaxşı bilir ki, əsgərlərimiz əks-hücum kimi başlayan bu döyüşü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini qətiyyətlə həll edən döyüş kimi davam etdirir. Hər qələbə Böyük Qələbə üçündür. Yəni, əsgər və zabitlərimiz hər döyüşü müharibənin son döyüşü bilib döyüşür.

Əsgər Vahid Musayev dumanı dağılmış dağlara sarı baxır və səmimiyyətlə deyir ki, hərbi xidmətə başlayanda hamımız döyüş əmri arzulayırdıq. Əsgər yoldaşlarım tərxis olunanda döyüşlərdə iştirak edə bilmədiklərinə görə təəssüflənirdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edildi. Əsgər yoldaşlarımdan səfərbərliyə çağırılanlar da olub. Səmimiyyətimə inanın, çağırılmayanlar çağırılanlara həsəd aparır...

Əsgərlərin bayrağımızı bağrına basması könlümü təlləndirir.

Azərbaycan əsgəri qalibiyyət bayrağı bildiyi dövlət bayrağımızı döyüşdən əvvəl də göy üzünə dikəldir, döyüşdən sonra da. Döyüşə dövlət bayrağımızın xeyir-duasıyla gedir, döyüşdən qayıdanda dövlət bayrağımızı öpüb gözünün üstünə qoyur...

Bir az əvvəl döyüş əmrini yerinə yetirənlər - düşmənə ağır zərbələr endirənlər bu ucalıqda dövlət bayrağımızı bir az da ucalığa qaldırır. Bayrağımız bugünkü döyüşün qaliblərinin əllərində bənzərsiz dalğalanır. Bu dalğalanmanı göylərin Azərbaycan əsgərinə xitabən deyilən "Siz var olacaqsınız!" andı bilirəm. "Bu ucalıqda bu qələbə sevinci Cıdır düzünəcən kəsilməz sevinc olacaq. Azərbaycan əsgərinin qələbə sevincinin üstünə yad yellər əsməyəcək! Bu sevinc Şuşada nəfəs dərəcək..." - deyirəm. Zabit Emil Hüseynov düşündürücü və qürurverici bir mətləbdən söz açır:

- Əsgərlərimizin hamısı bu çılğınlıqla, bu istəklə döyüşür. Bu gün də belə döyüşüblər. Sabah da belə döyüşəcəklər. Son döyüşü də bu ovqatla tamamlayacaqlar. Bu əsgərlər qələbənin əsgəridi. Dövlət bayrağına belə sevgini Böyük Qələbəyə zəmanət bilirəm.

Sağımızda, solumuzda dayanıb söhbəti dinləyənlərin baxışlarında oxunan mətləbə qələbə ruhu demək insafsızlıqdı. Bu baxışlara baxıb qazanılacaq qələbənin coşqusunu görə bilərsən, bu baxışlardan boylanıb İsa bulağını, Şuşanı, Ərimgəldini, Ərgünəşi, ... görə bilərsən. Böyük Qələbənin paradında Azadlıq meydanına gətiriləcək bayraqların sırasında bu bayrağın da olacağına əmin olarsan. Bu əminlik də vətənpərvərlikdi. Sənə, mənə, bizə belə bir vətənpərvərlik yaşadan əsgərlər Böyük Qələbənin sevincini də yaşadacaqlar...

Gizir Süleyman Kazımov deyir ki, hərbi xidmətdə də, ordu sıralarına yenidən qayıtdıqdan sonra da bir niyyətlə xidmət etmişəm: torpaqlarımızı işğaldan azad edəcək döyüşlərdə iştirak etmək. Hər birimizin vətənsevərliyimiz döyüş əzmidi, döyüş əzmimiz qələbə ruhudu, qələbə ruhumuz qələbədi.

Kəlmələr ruhuma hopur, düşüncələrimə sarılır; qələbə ruhunun qələbə olması fikrini yaşamaq xoşdu, bu gözəl, bu yaşarı fikri ictimaiyyətə çatdırmaq da, onu qələbə günü Cıdır düzündə qaliblərlə yenidən bölüşmək də...

Müharibədə qəhrəmanlıq təkrar olunmur, qəhrəmanlığın mahiyyəti təkrar olunur. Bu ucalıqda zabit Elvin Şükürlüdən danışırlar. Hər kəlmədə qürur, hər kəlmədə qürurqarışıq qəhər var.

- Döyüşmək, qələbə qazananların sırasında olmaq istəyirdi. Əks-hücum əməliyyatı başlayanda gözdolusu əsgərlərə baxıb. Əsgərlərin tündləşən baxışlarından aldığı mətləb könlünü təlləndirib. Əsgərlərə xitabən, "Siz qalib gələcəksiniz!" deyib. Əsgərlər belə bir zabitin döyüş yolunu qətiyyətlə davam etdirirlər...

Onu da deyirlər ki, Elvin Şükürlü Mübariz İbrahimovun qəhrəmanlığının mahiyyətini təkrarlayıb. Düşmənin mövqeyinə gedib. Güman ki, atışmağa imkan olmayıb. Elvin dörd düşmənlə əlbəyaxa döyüşüb. Dördünü də öldürüb. Əsgərlərimiz döyüşü belə bir döyüşün, belə bir şəhidliyin ruhu ilə davam etdirirlər.

Zabit Elçin Quliyev belə deyir ki, şəhidlərimizin ruhuna gözaydınlığı verəcəyimiz gün üçün döyüşürük...

Qüruru qəhərinə boy verməyən kəlmələrin ruhumu bürüməsini duyunca neçə illər əvvəl Gədəbəydə belə bir ucalıqda yaşamışdım. Onda bir əsgər qürurla demişdi ki, mən əsgərəm, bütün əmrləri məsuliyyətlə yerinə yetirəcəm. Bir istəyim var: bu ucalıqdan enib döyüşüm, güllələrim düşmənin kürəyində soyusun. O əsgərin istəyini daha çılğınlıqla yaşayanların döyüş əzmini də görürəm, döyüş əzminin yaratdığı qələbə ruhunu da. Bu duyum bir az əvvəl qələbə qazananlara sevgidi, sayğıdı, ehtiramdı. Bu ehtiram bu ucalıqdan döyüş meydanına enməyə niyyətlidi. Bu niyyəti ucalıq, bir də şəhidlərimizin narahat ruhu uğurlayacaq...



Zabit Vaqif Nəhmətov deyir ki, əks-hücum əməliyyatı başlayandan sonra ordu-ictimaiyyət münasibətləri daha da yüksək səviyyədədir. Döyüşçülərimiz ictimaiyyətin maddi-mənəvi dəstəyini də duyğusallıqla hiss edir, kürəyini isidən nəfəsini də. Döyüşdə yaralanan, lazaretdə müalicə olunan əsgər onu yoluxan vətənsevərin "Necəsən?" sualına cavab olaraq "Yaxşıyam" - deyib, masanın üstündəki çörəyi göstərib. Sözünü "Siz göndərdiyiniz çörəyi yeyən əsgər lap tez sağalacaq, döyüşə qayıdacaq. Sonrakı döyüşlərdə mən də iştirak edəcəm" kəlmələri tamamlayıb...

Zabit Rüstəm Abdullayev düşüncələri bunca kövrəkliklə tərpədən, düşüncələri bunca dönməz, bunca yenilməz qələbə ovqatına qovuşduran söhbətə səmimiliklə müdaxilə edir:

- Əsgərlərimiz "Qalibiyyət döyüşündəyik!" - deyirlər, "Qələbənin əsgəri olacağıq!" - deyirlər...

Üzü göylərə səslənirəm: Azərbaycan əsgəri mərdliklə döyüşür, döyüşdə yaralananlar tez sağalmaq, döyüşlərə qayıtmaq istəyir. Bu, xəlqi ruhun eynidi, xəlqi ruhudu. Bu istək döyüş əzmidi, bu döyüş əzmi qələbə ruhudu, bu qələbə ruhu qələbədi. Dumanı dağıdan xırda qanadlı yellər kəlmələrimi dodaqlarımdan qoparıb uzaqlaşır. Haracan aparacaq, bilmirəm...

Süleyman Kazımov deyir ki, biz istənilən döyüş əmrini qələbə ilə başa çatdıracaq, döyüşə-döyüşə qələbəyə nail olacağıq. Şəhidlərimizin də əvəzindən döyüşürük.

Bir az əvvəl döyüş olub, əsgərlərimiz döyüşü qələbə ilə tamamlayıb. Bu ucalıqda biz ora çatınca gözəl bir ovqat yaşanılıb. Bu ovqat bizim də ruhumuzu kükrədib. Bizimlə kəlmələşənlər də var, döyüşün ovqatını ikilikdə, üçlükdə bölüşməyə həvəsiyənlər də. Könül xoşluğuyla, səmimiyyətlə qələbədən danışırlar.

"Şəhid yoldaşlarımızın qisasını almışıq, sonrakı döyüşlərdə tanımadığımız şəhid qardaşlarımızın qisasını da alacağıq" - zabitlər də, əsgərlər də belə deyirlər, döyüşü Böyük Qələbənin son döyüşü bilib döyüşürlər. "Biz işğalın son nəfəsinə kimi vuruşacağıq". - Azərbaycan əsgəri bu niyyətlə döyüşür!..

Suqovuşan düşməndən azad edildi...

Mübariz İbrahimovun qəhrəmanlıqla şəhid olduğu mövqe düşməndən azad edildi...

Cəbrayıl rayonu düşməndən azad edildi...

Hər biri ayrılıqda ruhumuzun mənəvi salavatıdı...

Biz səngərlərdən uzaqlarda qələbələrin ovqatını belə yaşayırıq. Görəsən, bu qələbələr əks-hücum əməliyyatında iştirak edən əsgər və zabitlərimizin qələbə ruhunu hansı səviyyədə kükrədib? - Sorğunu özüm cavablandırıram: Böyük Qələbə səviyyəsində!..

Heç kim heç zaman ucalıqdan enmək istəməz. Müqəddəs niyyət üçün, Vətən üçün, torpaq üçün ucalıqdan döyüş meydanına enmək müqəddəslikdi...

"Torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik!" - Azərbaycan əsgərinin döyüş andı belədi!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ölkəmizdəki xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb



Oktyabrın 5-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq verilmişdir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, brifinq iştirakçılarının diqqətinə işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların gedişatı və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verilib.



Bundan əlavə qonaqlara təmas xəttindən xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və rayonlarına düşmənin raket və artilleriya zərbələri endirməsi barədə də ətraflı məlumat çatdırılıb.

Düşmənin açdığı atəş zərbələri nəticəsində dinc əhali və mülki infrastruktura dəyən ziyan, eləcə də düşmən ordusunun öz hərbi qulluqçularına qarşı göstərdiyi qeyri-insani münasibət və hərəkətlər barədə faktlar da diqqətə çatdırılıb.

*Ovqat*

# Ordumuz tarix yazır



Bu günlərdə uğurlu döyüşləri ilə xalqımıza böyük sevinc yaşadan zabit və əsgərlərlə görüşmək üçün cəbhə bölgəsindəyik. Sevincimizi onlarla bölüşmək üçün səngərlərə, mövqelərə üz tutduq. Yol uzunu hər yerdə Qələbə ovqatı, düşmənə sarsıdıcı zərbələr vuran zabit və əsgərlərimizə böyük sevgi və məhəbbət gördük.

Bizi döyüşçülərin yanına aparan yollar başı göylərə söykənən dağların qoynundan keçir. Vətənə şərəf və ləyaqətlə xidmət edən zabit və əsgərlərimiz neçə illərdir, cənnətə bənzəyən bu gözəl əraziləri erməni qəsbkarlarından göz bəbəkləri kimi qoruyurlar. Dağların gözəlliyini, əzəmətini seyr edə-edə, dağlar kimi vüqarlı, dağlar kimi əzəmətli zabit və əsgərlərimizin yanına tələsirik.

Üz-gözündən igidlik yağan zabit və əsgərlərlə bir-bir görüşüb, qazandığı uğurlar və zəfərlər münasibətilə onları təbrik edirik. Zabit Elçin Quliyevdən eşitdiyimiz xoş müjdələr ovqatımıza ovqat qatır.

Zabit Elçin Quliyev danışdıqca qulaqlarıma güllə səsləri gəlir, gözlərim önündə Azərbaycan əsgərinin məğrur, məğlubedilməz obrazı canlanır. Son döyüşlərdən böyük həvəslə, yüksək ovqatla danışan zabit dedi ki, torpaqlarımızın azadlığı uğrunda müharibə başlanan gündən böyük hünər və cəsarətlə döyüş meydanına atılaraq, erməni qəsbkarlarına sarsıdıcı, qarşısıalınmaz zərbələr vururuq. "Bir neçə gün ərzində təkcə bizim bölmələrimiz erməni qəsbkarlarının 200-dən çox şəxsi heyətini, bir neçə zirehli texnikasını məhv edib. Döyüşlərdə böyük hünər və rəşadət göstərən zabitlərimiz, əsgərlərimiz əks-həmlə ilə düşmənin mövqelərini ələ keçirərək, qəsbkarları ağır məğlubiyyətə uğradıblar. İşğalçılar silah-sursatını da atıb geri qaçırlar. Ordumuz güclü və qüdrətlidir. Zabit və əsgərlərimiz Böyük Qələbəmiz naminə döyüş meydanlarında gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıqlar göstərirlər. Erməni işğalının sonuna sayılı günlər qalır, Azərbaycan Ordusu döyüş meydanlarında tarix yazır. Biz çox xoşbəxt hərbçilərik ki, Qələbə qoxulu bu döyüşlərin iştirakçısıyıq. Biz Böyük Qələbəmiz naminə döyüşürük. Qələbə bizimlədir, çünki öz ölkəmizdə doğma torpaqlarımız uğrunda vuruşuruq. Hazırlığımız yüksək olduğuna görə bütün döyüşlərdə uğurlar, zəfərlər qazanacağıq".

Söhbətinə davam edən zabit döyüşlərdə fərqlənənlərdən də söz açdı. Bildirdi ki, düşmən üzərində qələbənin qazanılmasında şəxsi heyətin hamısının böyük zəhməti var. "Döyüşlərdə zabitlərdən İltifat Ağayev, Emil Hüseynov, Nicat Nağıyev, Elsevər Həsənov, Rüstəm Abdullayev, Emil Ağayev, Amil Mikayılov, Elnur Şükürlü, Xəzər Əlizadə, gizir Təbriz Cəfərov, əsgərlərdən Mehrab Axundov, Vüsal Fətullayev, Məhəmməd Məlikov, Aqil Həsənov və başqaları cəsarətlə, hünərlə vuruşdular. İnanıram ki, qarşıdakı döyüşlərdə də düşmən mövqelərini darmadağın edəcəyik. Çünki döyüş hazırlığımız yüksək səviyyədədir. Düşməni məhv etməyə qadirik".

Söhbət zamanı öyrəndik ki, zabit Elçin Quliyev Aprel döyüşlərində də iştirak edib. Talış kəndi istiqamətində gedən qanlı döyüşlərdə vuruşub. Həmin günlərdə o, üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib, döyüş meydanlarında böyük hünər və qəhrəmanlıq göstərib. E.Quliyev bu gün döyüşlərini yenə də uğurla davam etdirir. İnanırıq ki, belə cəsur hərbçilərimiz düşməni məhv edəcək, qarşıdakı döyüşlərdə böyük uğurlar, zəfərlər qazanacaqlar.

Uzaqdan yenə atəş səsləri eşidilir. Başımızı qaldırıb səmaya baxırıq. Buludlu səmadan əsər-əlamət qalmamışdı. Sanki Ay həmişəkindən güclü bərq vururdu, Ulduzlar da daha sürətlə sayrışırdı. Elə bil ay da, ulduzlar da bizə qoşulub uğurlarımıza, zəfərlərimizə sevinirdi.

**Vahid MƏHƏRRƏMOV,**
**" Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyində fəaliyyət göstərən "Qaynar xətt" nömrələri açıqlanıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyində fəaliyyət göstərən "Qaynar xətt" telefon nömrələri açıqlanıb.

AZƏRTAC Müdafiə Nazirliyinin saytına istinadla həmin nömrələri təqdim edir:

**Müdafiə Nazirliyi:** +994 (012) 912

**Nazirliyin Tibb Baş İdarəsi:**
+994 (012) 406-68-84 +994 (012) 406-68-58
+994 (012) 406-72-52 +994 (012) 406-72-77

**Nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsi:**
+994 (012) 406-85-43 +994 (012) 406-59-33

# Zəfərlər qazanırsan, Azərbaycan əsgəri!

Bu gün zəfər günüdür. Bir vaxtlar qəhərdən boğulan Azərbaycan indi bayraqlara bürünüb. Azərbaycan əsgəri, Azərbaycan zabiti döyüşür. Bu döyüş torpaqlarımızın işğaldan qurtuluş döyüşüdür. Bu döyüş Böyük Qələbəylə tamamlanacaq. Bu gün Azərbaycan əsgəri ön xətdə qəhrəmanlıq tarixini yazır, bağrı şan-şan olan torpaqlarına məlhəm olur atdığı güllələr, mərmilər. İllərdir həsrətlə bizə boylanan Qarabağ indi bir döyüşlük məsafədədir. Tarixi torpaqlarımızda səmanı izləməyə, torpağın qoxusunu sinəmizə çəkməyə, məscidlərdən ucalan azan səsini eşitməyə az qalıb. Çox az qaldı, igid əsgər. Biz səninlə birgə xatırlayacağıq qələbənin necə qazanıldığını. Şəhidlikdən keçən döyüşlərin sonunda sevincimizi şahidlik tamamlayacaq. Üçrəngli bayrağımızın Qarabağda əzəmətlə dalğalanmasının şahidi olmaq ən gözəl könül xoşluğu olacaq.

Ocağının istisindən, əsgərinin arzusundan,
Çiskin yağış sonrası torpağının qoxusundan
Mən, Vətəni tanıyıram...

Azərbaycan əsgəri, qələbələr sənin əsərindir. Xalqının üzündəki təbəssüm, gözlərindəki sevinc sənin Ali Baş Komandanın döyüş əmrini necə yerinə yetirdiyinin ehtiramının ifadəsidir. İndi şəhid anaları təsəlli tapırlar ki, övladlarının qanı yerdə qalmır. Yeniyetmələr səndən güc alaraq qorxmadan dayanmağı öyrəndi. Anan, atan, sevdiklərin, gözləyənlərin olsa da, sənin üçün önəmli olan Vətəndir.

Bu torpaqları görməyən uşaqlar, gənclər neçə illik mənzərəni göz şahidliyiylə əzbərləyəcək, yaddaşlarına əbədi həkk edəcəklər.

Mübariz İbrahimovun şəhid olduğu torpaq indi sinəsində Azərbaycan bayrağını dalğalandırır. Bu sevinci, bu qüruru xalqa yaşatdığın üçün sənə minnətdarıq, Azərbaycan əsgəri. Sən bütün anaların övladısan. Torpaqlarımız tamamilə işğaldan azad olunacaq, tarixi torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Doğma ocağının həsrətini çəkənlərin həsrəti bitəcək, hamısının üzü güləcək.

**Hüsniyyə İDRİSOVA**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 576
Nüsxə 4000